www.achiq.info

Miyanalı Əlirza- -Lütfəli Ərdəbili (Fələki)

# İNQİLABİ HƏRƏKATIMIZIN SİLAHLI QÜVVƏLƏRİ

XX əsr Azərbaycan xalqının tarixində azadlıq uğrunda apardığı mübarizənin ən uca yüksəlişi dövrüdür. İranda yaşayan xalqların milli hüquqlarını tapdalayan, onları kölə halında saxlamağa cəhd göstərən şahlıq monarxiya üsul-idarəsinə qarşı mübarizə XX əsrdə daha ciddi surətdə özünü göstərməyə başladı. İran xalqlarının inqilabi mübarizəsində həmişə ön cəbhədə gedən Azərbaycan xalqı XX əsr azadlıq hərəkatının ən aparıcı qüvvəsinə çevrildi. 1905-1911-ci illərdə Məşrutə hərəkatı parlamentli rejimin yaranmasına nail oldu. Hərəkatın qələbəsi və onun təzyiqi nəticəsində şura məclisi yaradıldı. Sərdari-Milli Səttarxan, Salari-Milli Bağırxan rəhbərlik etdiyi fədailər Məşrutə Hərəkatının qələbəsində unudulmaz rol oynadılar. 1908-ci ildə ikinci şura məclisinin yenidən açılışı ilə Səttarxan və Bağırxanın şəkilləri şöhrət nişanı kimi təsdiq edilib Milli Məclisin tribunasından asıldı...Parlamentli dövlətin yaranmasının bayraqdarı olan Azərbaycan xalqının rəhbər qüvvələri hiyləgərliklə aradan götürüldü. 1917-1920-ci illərdə yenidən başlanan hərəkat Məşrutənin davamı kimi tarix səhnəsinə qədəm qoydu. Ona böyük mütəfəkkir Ş.M.Xiyabani rəhbərlik etdiyindən məhz onun adı ilə tarixə daxil oldu. "Demokratiya olmayan bir ölkədə heç bir azadlıqdan danışmaq mümkün deyildir" - deyən Ş.M.Xiyabani xalqın siyasi şüur səviyyəsini qaldırmağa cəhd göstərmiş və bu yolda uğurlu nəticələr əldə etməyə müvəffəq olmuşdur. Bu hərəkatın silahlı qüvvələri-"Qardı Milli" adlanan fədailər Xiyabani dühasından qidalanmış, ondan yol almış, azadhq və demokratiya uğrunda mübarizədə Xiyabaninin özü kimi ölümü də mərdliklə qəbul etmişlər. Xiyabani hərəkatından yaranan demokratik dövlət cəmi 6 ay yaşasa da nəinki Azərbaycanda, bəlkə bütün İranda xalqa və ölkəyə nə verəcəyini aydın şəkildə nümayiş etdirmişdir. Başda Ş.M.Xiyabani olmaqla, minlərlə insan azadlıq uğrunda canlarını qurban verməklə -"Hər xalqın şərafəti onun müstəqil olmasındadır"-fikrini məqsəd götürmüş və buna dahi mütəfəkkir, filosof Ş.M.Xiyabani kimi əməl etmişlər.

İnqilabi mübarizə mərhələ-mərhələ püxtələşərək şəraitə uyğun şəkildə aparılmış, 1945-ci ildə siyasi cəhətdən daha da yüksəlmiş və kütləvi şəkil almışdır. İnqilabi mübarizələrdə təcrübələr görmüş S.C.Pişəvərinin yaratdığı Azərbaycan Demokrat Firqəsi bu mübarizəyə rəhbərlik etməyə başlamışdır. Milli həqarət, hərc-mərclik şəraitində feodalların, xanların və dövlət məmurlarının özbaşınalığı bütün insanları cana gətirdiyi bir halda Azərbaycan Demokrat Firqəsinin irəli sürdüyü demokratik tədbirlər xalqı öz ətrafında birləşməyə sövq etdi. İran daxilində Azərbaycan xalqına milli muxtariyyət verilməsi tələbi İran hökuməti tərəfindən qəbul olmadığına, hətta jandarmları, xanları və mürtəce feodalları silahlandırıb xalqa divan tutduğuna əsasən dinc yollarla milli muxtariyyət əldə edilməsi mümkün olmayan məsələyə çevrildi. Bir ay ərzində-1945-ci ilin oktyabr aymda 100

nəfərdən artıq firqə üzvləri öldürülmüş, 1000 nəfərdən artıq insanın evi qarət edilmiş və yüzlərlə insan həbs olunmuşdu. Buna görə Azərbaycan Demokrat tarqəsi zorla, silahlı yolla Azərbay-can xalqının hüquqlarmı təmin etmək qərarına gəldi.

Mərkəzi Komitənin 1945-ci ilin oktyabr ayında keçirilən ikinci plenumu Azərbaycan xalqının demokratik hüquqlarını zorla almaq məsələsini irəli sürdü. Azərbaycan xalqının bütün nümayəndələri belə bir mühüm mövzunun firqənin məramnaməsində qeyd olunmasını yekdilliklə təklif etdi. Demokratik hüquqları əldə etmək üçün Azərbaycan Demokrat Firqəsinin birinci qurultayı hər cür tədbir görülməsi zərurətini Mərkəzi Komitənin qarşısında məqsəd qoydu. Dövlət məmurlarının cinayətkar əməlləri ilə əlaqədar Azərbaycan Demokrat Firqəsi 102 dəfə əsaslı sənədlərlə dövlət idarələrinə etirazını bildirmiş və mətbuat orqanlarına açıq məktubla müraciət etmiş, heç birinə dövlət tərəfindən əhəmiyyətli cavab almamışdır. Bütün bunlardan sonra, firqə kəndlərdə kortəbii surətdə başlanmış silahlı qüvvələri mütəşəkkil bir hala salmaqla silahlı fədai dəstələri yaratmış, bütün şəhər və kəndlərdə etiraz mitinqləri təşkil etmişdir. Təbriz şəhərində 744 nəfər nümayəndə Müəssislər Məclisi yaratmışdır. Həmin məclisin yaradılmasında fədai dəstələrinin böyük rolu və köməyi olmuşdur.

Azərbaycan xalqının mübarizə tarixində Babəkdən başlamış Şah İsmayıl Xətai dövründə, xüsusilə 1905 - 1911- ci illərdə, Məşrutə hərəkatında, 1917-1920-ci illərdə Ş.M.Xiyabani inqilabında fədai adı altında Azərbaycan xalqı həmişə böyük müvəffəqiyyətlər əldə etdiyindən Azərbaycan Demokrat Firqəsi də həmin inqilablar yolunun davamçısı kimi silahlı qüvvələrinə fədai adı vermişdir. 1945-ci ildə başlanan hərəkatda fədailərin hərbi qərargahına Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsi və mahallarda onun təşkilatları rəhbərlik etmişdir. Azərbaycan Demokrat Firqəsinin fədai dəstələrinin arasında bütün siniflərin nümayəndələri, hətta qadınlar olmuşdur. Azərbaycan xalqının uğurlu gələcəyinə, azadlığına inamı olanlar, xalq arasında təmizliyi ilə hörmət qazananlar fədailərin sırasını təşkil edirdi. Hərbi sahəni bilmək, özünün silahı olmaq, xalq üçün, vətən üçün ölümü qəbul etmək əsas məqsəd götürülmüşdü. Fədai dəstələrinin hazırlanmasında, başçılarının təyin edilməsində firqə təşkilatları əsas rol oynamışlar. Azərbaycan şəhərlərinin şah qoşunlarından təmizlənməsi buna ən bariz nümunə kimi təqdim oluna bilər:

1.Miyana:

*Noyabrın 14-dən 17-nə qədər; Komitənin sədri Əli Şəmidə, fədai başçıları Qulam Danişyan, Abbas Pənbeyi, Teymur Mədədi və başqalaru*

2.Sarab:

*Noyabrın 15-dən 17-nə qədər; Komitənin sədri Şirzad fədai başçıları Qulamrza Cavidan, Məmi Sadiqi, Cəfərqulu İclali və başqalaru*

3.Marağa:

*Noyabrın 20-dən dekabrın 11-nə qədər; Komitə sədri Mirzə Rəbi Kəbiri, fədai başçıları Kəbiri, Heydər Afaqi, Səfər Qəhrəmani və başqalaru*

4.Miyandab:

*Noyabrın 20-dən dekabrın 14-nə qədər; Komitə sədri vəfədai başçısı Qulu Sübhü*

5.Mərənd:

*Noyabrın 18-dən dekabrın 2-nə qədər; Komitənin sədri və fədai başçısı Mirkazım Ə'ləm.*

6.Qaradağ:

*Noyabrın 20-dən dekabrın 30-na qədər;*

*Komitənin sədri Əbdülsəməd İmrani, fədai başçıları Məmməd Agahi, Səməd İmrani və başqalaru*

7.Ərdəbil:

*Noyabrın 20-dən dekabrın 15-nə qədər; Komitənin sədri Həsən Cövdət, fədai başçısı Əbdülməcid Məhəmmədivənd və başqalaru*

8.Astara:

*Noyabrın 24-dən 26-na qədər; Komitənin sədri və fədai başçısı Sadıq Zəmani.*

9.Nəmin:

*Noyabrın 23-dən 25-nə qədər;*

*Fədai başçısı Fərzi Dehaan .*

10.Zəncan:

*Noyabrın 26-dan 27-nə qədər; Komitə sədri Cahanşahlu, Əlizadə Nami, fədai başçıları Qulam Danişyan, Məmmədəli Ramitin, Yusif Mürtəzəvi, Qulamhüseyn xan Osanlu, Hidayət Hatəmi və başqalaru*

ll.Meşkinşəhr:

*Noyabrın 27-dən 29-na qədər; Komitə sədri və fədai başçısı Kamiran Əzizi, Tohidi Əli və başqalaru*

12.Biləsuvar:

*Noyabrın 27-dən dekabrın 5-nə qədər;*

*Komitə sədri və fədai başçısı Əkbər Coşənpuş.*

13.Maku: *Dekabrın 2-dən   9-na qədər; Komitə sədri və fədai başçısı Yekani.*

14.Səlmas: *Dekabrın 2-dən   6-na qədər; Komitə başçısı Əhməd Bəradərani, İsmayıl Cəfərpur, Mükərrəm Turabi və başqalaru*

15.Xoy: *Dekabrın 2-dən 9-na qədər; Komitə sədri Əbdülhüseyn Əhmədi, fədai başçıları Əhmədi, Cəmşid Söhrabi, Təqi Dadaşzadə, İsmayıl İqbal və başqalaru*

L6.Sərdəri:

*Dekabrın 11-də;*

*Komitə sədri Pişnəmazi, fədai başçıları Pişnəmazi Əbülfəz Haşimi və Dehqani.*

17.Təbriz:

*Dekabrın 12-dən 13-nə qədər; Şəhər komitəsi sədri Rəfii, fədai başçıları Kaviyan, Danişyan, Kəbiri, Mirkazım Ə'ləm, Qulamrza Cavidan, Əli Qəhrəmani, Əjdər Baldari və başqalaru*

18.Urmiyyə:

*Dekabrın 11-dən 18-nə qədər; komitə sədri Azad Vətən, fədai başçıları Azad Vətən, Möhsün Milaniyan və başqalaru*

19.Üskü:

*Dekabrın 11-də;*

*Komitə sədri Yədulla Kələntəri, fədai başçıları Yədulla Kələntəri, Əli Təhmasibi və başqalaru*

20.Xosrovşah:

*Dekabrın 11-də;*

*Komitə sədri və fədai başçısı Mirəli Mənafi və başqalaru*

Beləliklə, 18 mindən artıq Şah rejimi silahlı qüvvələri Azərbaycanda olduğu halda 1945-ci ilin noyabr ayının 14-dən başlayaraq dekabrın 20-nə qədər Azər-baycanın əsas ərazisi fədailər tərəfindən azad edilmiş, bunun nəticəsində bütün vilayətlərdən milli məclisə seçilmiş nümayəndələr çox rahatlıqla Təbriz şəhərinə gəlmiş, 1945-ci il dekabrın 12-də (Azər ayının 21-i) Milli Məclis işə başlamışdır. Fədai başçılarından 26 nəfər məclisə nümayəndə seçilsə də, onlar cəbhələrdə olduğu üçün Milli Məclis birinci iclasını 75 nəfər nümayəndənin iştirakı ilə başlamışdır. Xalqımız tərəfindən milli məclisə nümayəndə seçilib cəbhələri tərk edib gələ bilməyən bu rəşadətli fədailərin adlarını qeyd etmək istərdik:

*Kaviyan, Əhməd Səidi, Sadıq Dilməqani, Məmmədəmin Azadvətən, Məmmədəli Müinzadə, Bəhram Nabi, Qulam Danişyan, Mirzə Rəbi Kəbiri, Qulu Sübhi, Ataşxan Bəyat Maku, Muradəli Teymuri, Əbdülhüseyn Əhmədi, Məhmud Turabi, Əhməd Bəradərani Ahəngəri, Mükərrəm Turabi, Hüseyn Zövqi, Yusif Babacanyan, Həsən Cövdət, Məmmədhüsen Seyfiqazi, Hacı Mustafa Davudi, Kərim Əhmədi, Mənaf Kərimi, Vahab Biluriyan, Şeyx Musa Kəyani, Qulamrza İlhami və Cavidan.*

Belə bir prosesin döyünən nəbzi olan Təbriz şəhərinin alınmasına rəhbərlik edən 7 nəfərdən ibarət aşağıdakı fədai başçılarının adlarını xatırlamamaq olmaz:

*Kaviyan, Qulam Danişyan, Mirzə Rəbi Kəbiri, Mirkazım Ə'ləm, Qulamrza Cavidan, Qulamrza İlhami və Mirrəhim Vilayi.*

Fədailərin əldə etdiyi müvəffəqiyyət nəticəsində Milli məclis Azərbaycan Demokrat Firqəsinin sədri, fədailərin başçısı M.C.Pişəvərinin təqdim etdiyi 11 nəfərdən ibarət kabinəni Azərbaycanın milli hökuməti kimi təqdim etmişdir. Milli hökumətin yaranmasında əsas rol oynayan qüvvələr fədai dəstələri və elə-cə də İranın mütərəqqi qüvvələrinə mənsub olan və İranın silahlı qüvvələrini tərk edib fədailər ilə birləşən keçmiş ordu zabitləri olmuşdur. 1945-ci ilin avqust ayında

Xorasan əyalətində Şahlıq rejiminə qarşı üsyan edən və üsyan məğlubiyyətə uğradıqdan sonra Azərbaycana qaçan 60 nəfər zabit, İran ordusunu tərk edib 1945-ci ilin sentyabrında Azərbaycana gələn 30 nəfər zabit, İranın hərbi qərargah rəisi Həsən Ərfə tərəfindən həbs olunmuş inqilabçı zabitlərdən Kirman zindanından qaçıb Azərbaycana gələn 20 nəfər zabit və İranın Şah ordusunda Azərbaycanda xidmət edən zabitlərdən 130 nəfər, Azərbaycan silahlı qüvvələrində qalıb xidmət etmələrini xahiş etmişlər. Azərbaycan Milli Hökuməti andiçmə mərasimi keçirməklə onların xahişlərini qəbul etmişdir. Milli Hökumətin qurulmasında fədai dəstələri ilə zabitlərin rolları böyük olsa da, Milli Hökuməti möhkəmləndirmək, demokratik tədbirləri qorxusuz həyata keçirmək üçün intizamlı rəsmi qoşun yaradılması zərurəti meydana çıxmışdır

Azərbaycan Milli Məclisi 1945-ci il dekabr ayının 20-də Qızılbaş xalq qoşunlarının yaradılması haqqında qanun qəbul etmişdir. Milli Hökumət yeni yaranmış qoşunlarına böyük sərkərdə Şah İsmayıl Xətainin öz ordusuna verdiyi adı, Qızılbaş adını qəbul etmişdir. Azərbaycan Milli Hökuməti xalq qoşunları nazirliyi qarşısında böyük vəzifələr qoymuşdu. Cavanların könüllü surətdə orduya çağırışı başlanmışdı. Qız və oğlanlar, cavanlar təşkilatlarına müraciət edib onları Qızılbaş Xalq Qoşunları tərkibinə qəbul etmələrini xahiş etmişlər. 1945-ci il dekabr aymın 30-da Azərbaycan Milli Hökumətinin sədri S.C.Pişəvəri cavanlara, xüsusilə qızlara təşəkkür edib hələlik ordu sıralarına hamının qəbul edilməsinə imkan olmadığını bildirmişdir. Qəbul olunanlar Milli Hökumət tərəfindən hərbi məktəblərdə, polis və hüquq siyasi məktəblərində təhsil almağa başlamışlar. Rəsmi Qızılbaş Xalq Qoşunlarının baş hərbi qərargahı yaranmış, 9 nəfərdən ibarət heyət qərargaha rəhbərlik orqanı kimi seçilmişdir:

*S.C.Pişəvəri, C.Kaviyan, Əbulqasim Əzimi, Q. Danişyan, Kəbiri, Pənahiyan, Nəvai, Milaniyan, Əbdülrza Azər.*

General Mahmud Pənahiyan hərbi qərargahın rəisi, kadr üçün iki illik siyasi məktəbin rəisi Zeynəlabdin Qiyami və polis məktəbi rəisi general Milaniyan təsdiq edilmişdir. Ümumiyyətlə, xalq qoşunları tərkibində 8 general, 14 polkovnik və 300 nəfərə qədər müəyyən rütbəli zabit iştirak etmişdir. Fədai və yeni yaranmış rəsmi qızılbaşlardan təşkil olunmuş Azərbaycan ordusunun tərkib hissəsi 8 min fədai və 10 min qızılbaşlardan ibarət olmuşdur. Fədailər Azərbaycanın sərhədləri hüdudunda daxili əmniyyəti qoruyur, qızılbaşlar isə ordunu təşkil edirdi.